*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZIRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   22 iyul 2015-ci il   № 55 (1971)   Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti Milli Mətbuat Günü münasibəti ilə jurnalistləri mükafatlandırdı

İyulun 22-si Mətbuat Günüdür, Azərbaycanda ilk mətbu orqanın işıq üzü görməsinin 140 ili tamam olur. Ölkə mətbuatında çalışan jurnalistlərin mükafatlandırılması münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müvafiq sərəncamlar imzalayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə iki mətbuat işçisi Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb. Həmçinin, jurnalistlər Prezidentin müvafiq sərəncamı ilə 2-ci və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Tərəqqi" medalı ilə təltif ediliblər. Eyni zamanda, ölkə mediasının nümayəndələrinə Azərbaycan Respublikasının fəxri adları və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verilib.

## Milli Mətbuat Günü münasibəti ilə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Hörmətli kütləvi informasiya vasitələri nümayəndələri!

Sizi Azərbaycan milli mətbuatının yaranmasının 140 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir və fəaliyyətinizdə daha böyük yaradıcılıq uğurları arzulayıram.

Xalqımızın görkəmli ziyalısı və vətənpərvər oğlu Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunan "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız 140 illik tarixi ərzində çətin və şərəfli yol keçib, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub, dünyanın informasiya şəbəkəsindəki yeri artıb, rəqabət fəaliyyəti xeyli yüksəlib.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamına əsasən, respublikamızda kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə bir qrup şəxsin orden və medallarla təltif edilməsi, fəxri adlara layiq görülməsi Silahlı Qüvvələrimizin də şəxsi heyətinin böyük sevincinə səbəb olub.

Azərbaycan milli mətbuatının yaranmasının 140 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında da qeyd edildiyi kimi, kütləvi informasiya vasitələri bundan sonra da daha peşəkar, obyektiv və prinsipial olacaq, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutacaq və mətbuatımız müasir cəmiyyət quruculuğunda, milli-mənəvi dəyərlərin təbliği, gənc nəslin vətənpərvərlik tərbiyəsi, eləcə də Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə layiqli töhfələrini verəcəklər.

Sizi bir daha milli mətbuatımızın yaranmasının 140 illik yubileyi münasibəti ilə təbrik edir, çətin, məsuliyyətli və şərəfli işinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Müdafiə naziri cəbhə bölgəsindəki hərbi hissələrin döyüş hazırlığını yoxlayıb



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhə boyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrin döyüş hazırlığını yoxlayıb.***

Müdafiə naziri yüksək dağlıq şəraitdə, ağır və çətin relyefə malik bölgələrdə düşmənlə bilavasitə təmas xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşüb, onların döyüş hazırlığı, təminatı, sosial-məişət şəraiti və mənəvi-psixoloji vəziyyəti ilə maraqlanıb.

Şəxsi heyətlə keçirilən görüşlərdə Müdafiə naziri Ali Baş Komandanın Silahlı Qüvvələrimiz qarşısında qoyduğu bir sıra tapşırıqları diqqətə çatdıraraq bildirib: "Bayram günlərində ön xətdə, səngərlərdə yerləşən bölmələrin ziyarət olunması, şəxsi heyətlə görüşlərimiz artıq Müdafiə Nazirliyinin rəhbər heyətinin ən əsas vəzifələrindən birinə çevrilib. Biz bu günlərdə yüksək, sıldırım dağ zirvələrində keşik çəkən qəhrəman övladlarımızla görüşdük. Azərbaycan əsgərinin düşmən ərazilərini, mövqelərini, yaşayış məntəqələrini daim nəzarətdə saxlamaqla, istənilən anda qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirməyə hazır olmasının şahidi olduq.

Ön xətdə olarkən xidmət müddəti başa çatan, Silahlı Qüvvələrdən tərxis edilməyə hazırlaşan təcrübəli müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularının necə israrla xahiş edib səngərlərdə qalaraq xidmətlərini davam etdirmələrinə və düşməni işğal altındakı torpaqlardan qovmaq əmrinə hazır olduqlarını gördük. Bu, gənclərimizin, ümumilikdə xalqımızın döyüş ruhunun yüksək səviyyədə olmasının bariz nümunəsidir.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının yekunlarına həsr olunan iclasda ordu quruculuğuna, Silahlı Qüvvələrimizin gücünə verilən yüksək qiymət bizi ruhlandırır. Prezidentin "bir həftə ərzində Ermənistanda daş daş üstündə qalmaz" fikri ən müasir silah-sursat, maddi-texniki təminata malik ordumuzun qarşıya qoyulan istənilən döyüş tapşırığını yerinə yetirmək qüdrətində olan Azərbaycan əsgərinin dünyanın güclü ordularının hərbçiləri sırasında olduğunu sübut edir.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycanın xarici işlər naziri rusiyalı həmkarı ilə görüşüb

İyulun 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyasına işgüzar səfəri zamanı rusiyalı həmkarı Sergey Lavrov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov səfərin yüksək səviyyədə olan ikitərəfli münasibətlərin daha da inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Sergey Lavrov Azərbaycan ilə Rusiya arasında mövcud əməkdaşlığın bir çox sahələrdə, o cümlədən humanitar sahədə uğurla davam etdiyini bildirib və bu il Bakıda Rusiya mədəniyyət günlərinin təşkil olunacağını qeyd edib. O, eyni zamanda, 2015-ci ilin sentyabr ayında Sankt-Peterburqda Arktikanın neft-qaz yataqlarının araşdırılması ilə bağlı keçiriləcək tədbirə Azərbaycanın sənaye və energetika nazirinin də dəvət olunduğunu bildirib. Rusiyanın xarici işlər naziri bu ilin sentyabr ayında Yekaterinburqda Hökumətlərarası İqtisadi Komissiyanın iclası çərçivəsində keçiriləcək regionlararası forumda, həmçinin Sverdlovsk vilayətində təşkil olunacaq hərbi texnika sərgisində Azərbaycan nümayəndə heyətinin iştirakını gözlədiklərini vurğulayıb.

Danışıqların regiondakı vəziyyətə müsbət təsir edəcəyinə əminliyini vurğulayan Elmar Məmmədyarov buradakı vəziyyətin tam stabilləşməsi üçün Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasının zəruri olduğunu söyləyib. Münaqişənin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlara toxunan Azərbaycanın xarici işlər naziri bu məsələdə Rusiyanın həmsədr ölkə kimi rolunu önə çəkib.

Sergey Lavrov ATƏT-in Minsk Qrupu həmsədrlərinin bu istiqamətdə ardıcıl iş apardıqlarını, həmsədrlərin mütəmadi təmasda olduqlarını və münaqişənin həlli istiqamətində danışıqların daha da intensivləşdirilməsinin vaxtının çatdığını, bunun üçün bütün əsasların olduğunu vurğulayıb.

## Brukinqs İnstitutunda ABŞ, Avropa İttifaqı və Türkiyənin Cənubi Qafqaz siyasəti müzakirə edilib

***İyulun 15-də Vaşinqtondakı Brukinqs İnstitutunda "ABŞ, Avropa İttifaqı və Türkiyənin Cənubi Qafqaz siyasəti üçün tövsiyələr və məhdudiyyətlər" mövzusunda forum keçirilib.***

Brukinqs İnstitutu nəzdində "Türkiyə" layihəsinin direktoru Kamal Kırışçının moderatorluq etdiyi forumda Brukinq İnstitutunun böyük elmi əməkdaşı və institutun nəzdindəki Birləşmiş Ştatlar və Avropa Araşdırmaları Mərkəzinin direktoru Fiona Hill, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erik Rubin, Avropa İttifaqının ABŞ nümayəndəliyinin siyasi münasibətlər, təhlükəsizlik və inkişaf məsələləri şöbəsinin müdiri Klaus Botszet və "Ankara Siyasi Mərkəzi" analitik mərkəzinin direktoru Ünal Çevikgöz çıxış ediblər. Diskussiya iştirakçıları Qərbin Cənubi Qafqazda fəaliyyətinin zəifləməsi nəticəsində regionda yaranmış mənfi meyilləri və geosiyasi dəyişiklikləri müzakirə ediblər. Bu meyillər Qərb ölkələrinin regiondakı mövcud münaqişələrin və problemlərin həllinə marağının və istəyinin olmadığını nümayiş etdirir.

Ekspertlər ABŞ, Avropa İttifaqı və Türkiyənin Cənubi Qafqaz regionuna cəlb olunması diplomatiyasını və prioritetlərini yenidən dəyərləndirməyə dair tövsiyələri də müzakirə ediblər. Brukinqs İnstitutunun bu ilin iyulunda açıqlanan "Qafqaz regionunun tədqiq edilməsi: ABŞ, Avropa İttifaqı və Türkiyənin Cənubi Qafqaz siyasəti üçün tövsiyələr və məhdudiyyətlər" mövzusunda məruzəsinin bəndləri müzakirə edilib. Məruzə Azərbaycan, Gürcüstan və Ermənistan qarşısında duran geosiyasi meyillərin və təhlükəsizlik məsələlərinin təhlilinə həsr olunub.

Forumda iştirak edən AZƏRTAC-ın xüsusi müxbiri Yusif Babanlı bildirib ki, Ermənistan parlamenti bu il iyulun əvvəlində Rusiya ilə sazişi ratifikasiya edib. "KİV-lərin yaydığı məlumatda deyilir ki, sazişə görə Ermənistana 200 milyon dollar kredit veriləcək. Həmin məbləğ yeni silahların, o cümlədən "İsgəndər-M" operativ-taktiki raket komplekslərinin alınmasına xərclənəcək". AZƏRTAC-ın müxbiri vurğulayıb ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan oyuncaq rejimin lideri Bako Saakyan Argentinada çıxan "Clarin" qəzetinə bu ilin aprelində verdiyi müsahibədə bildirib ki, Dağlıq Qarabağ gec-tez Ermənistan ilə birləşəcək. Bu fakt "Dağlıq Qarabağın təyini-müqəddəratı" prinsipi ilə dünya birliyini aldadan Ermənistan siyasətinin reallıqlarını nümayiş etdirir.

E.Rubin sualı şərh edərək bildirib ki, ABŞ regionda yüksək texnoloji silahların satın alınması hallarının artmasından narahatdır. Bu, Ermənistan ilə Azərbaycan arasında münaqişənin bərpa olunması riskinin artmasına rəvac verir. E.Rubin bildirib ki, ABŞ münaqişənin sülh yolu ilə həlli siyasətini dəstəkləyir və ATƏT-in Minsk Qrupunun digər həmsədrləri ilə birlikdə iki ölkə arasında sülh danışıqlarında tərəqqinin təmin olunması üçün mümkün olan hər şeyi edir.

**AZƏRTAC**

## İtaliyanın "İl Giornale" qəzeti Azərbaycanın sürətli inkişafından bəhs edib

İtaliyanın "İl Giornale" qəzetinin saytında Azərbaycanın sürətli inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin İtaliya ilə əlaqələri və bir çox digər məqamların təhlil olunduğu yazı yerləşdirilib.

Müəllif əvvəlcə Dağlıq Qarabağ münaqişəsindən danışıb və bu problemlə bağlı azərbaycanlı zabitlərin, məcburi köçkünlərin fikirlərinə yer verib. Vurğulanıb ki, Azərbaycan 20 il bundan əvvəllə müqayisədə daha güclüdür, bu ölkənin iqtisadi və hərbi qüdrəti artmaqdadır. Cəbhə xəttində torpaqlarını qoruyan azərbaycanlı əsgərlər ən müasir silahlarla təchiz ediliblər. Uzun illər davam edən Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın qanayan yarasıdır və on minlərlə insanın həyatına son qoyub.

Müəllif Azərbaycanın paytaxtı Bakını Qafqazın Dubayı adlandırıb və vurğulayır ki, bu şəhərdə müasir elementlərlə yanaşı, tarixin izləri də özünü göstərir.

Yazıda İtaliyanın Azərbaycandakı səfiri Ciampaolo Kutillonun fikirləri də yer alıb: "Azərbaycan ilə İtaliya arasında əlaqələr strateji əhəmiyyət daşıyır. Xüsusilə, enerji sahəsində əməkdaşlıq müsbət nəticələr verməkdədir". Bildirilir ki, Azərbaycan İtaliyanın bir nömrəli xam neft təchizatçısıdır. TAP layihəsinin reallaşması ilə bu əməkdaşlıq daha da genişlənəcək.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə İtaliyaya səfəri, keçirdiyi görüşlər barədə də məlumat verilib.

**AZƏRTAC**

# Müdafiə naziri cəbhə bölgəsindəki hərbi hissələrin döyüş hazırlığını yoxlayıb

(Əvvəli 1-ci səhifədə)

Xalqımız bilməlidir ki, düşmənə müxtəlif istiqamətlərdə zərbə endirərək böyük itkilərə məruz qoyan, əməliyyat şəraitində təşəbbüsə yiyələnən Azərbaycan əsgəri sübut etdi ki, düşməndən hər cəhətdən üstündür. Silahlı Qüvvələrimiz hərbi güc tətbiq etməklə ən əsas və müqəddəs borcunu - işğal olunmuş torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırdır. Silahlı Qüvvələrimiz gecə-gündüz təlim mərkəzlərində, səhra çıxışlarında döyüş vərdişlərini təkmilləşdirməklə bu müqəddəs günün yaxınlaşması üçün inamla çalışır. Ordumuz qısa bir müddətdə şəhidlərimizin qisasını almağa tam hazırdır.

Sizi Ramazan bayramı münasibəti ilə bir daha səmimi qəlbdən təbrik edirəm. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə uğurlar arzulayıram".



Müdafiə Nazirliyinin rəhbərliyi yüksəkliklərdəki postların müdafiə qurğularının, silah-sursatın, döyüş texnikasının vəziyyətinə, əsgər yataqxanasına, xidməti otaqlara, səhra hamamına, saxlanclar və digər obyektlərə baxıb, hərbi qulluqçularla birlikdə nahar edib, onların istək və arzularını dinləyiblər.

Müdafiə naziri şəxsi heyəti bayram münasibəti ilə təbrik edərək dağlıq ərazilərdəki ön səngərlərdə yerləşən hərbi qulluqçulara bayram sovqatları təqdim edib, xidmətdə fərqlənənləri qiymətli hədiyyələrlə mükafatlandırıb və şəxsi heyətlə xatirə şəkli çəkdirib.

Müdafiə naziri ərazinin relyefi, spesifikası nəzərə alınmaqla yüksək dağlıq şəraitində xidmət keçən şəxsi heyətin xüsusi hazırlığına diqqətin daha da artırılması, onların döyüş tapşırıqlarını istənilən anda dəqiq və vaxtında yerinə yetirmələrinə dair müxtəlif məşq və hazırlıqlarının davam etdirilməsi ilə bağlı komandir heyətinə müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri Belarusun Azərbaycanda səlahiyyət müddəti başa çatmış səfiri ilə görüşüb



***İyulun 20-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Nikolay Patskeviçlə görüşüb.***

Görüşdə Azərbaycanla Belarus arasında hərbi, hərbi-texniki sahədə mövcud əlaqələrdən razılıq ifadə olunub və bu istiqamətdə fəaliyyətlərin genişləndirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Ölkəmizdə olduğu müddətdə səfirlə əvvəlki görüşlərini xatırladan Müdafiə naziri diplomata gələcək fəaliyyətində uğurlar arzulayıb.

Sonda səfir səmimi qəbula görə minnətdarlığını ifadə edərək ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin və xalqının daim səmimi dostu olaraq qalacağını vurğulayıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin məzunlarının ənənəvi görüşü keçirilib









***Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin (BAÜKM) hazırda müxtəlif ölkələrdə yaşayan bir qrup məzunu ailə üzvləri ilə birgə bu günlərdə yenidən paytaxtımıza gələrək məzunların ənənəvi görüşündə iştirak ediblər.***

Qonaqlar azərbaycanlı həmkarları ilə birlikdə öncə Fəxri xiyabanı ziyarət edərək ümummilli lider Heydər Əliyevin, onun həyat yoldaşı, görkəmli oftalmoloq alim Zərifə Əliyevanın məzarları önünə gül dəstələri düzüblər. Sonra qonaqlar Şəhidlər xiyabanında olub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsinə öz hörmət və ehtiramlarını bildiriblər.

Vaxtilə BAÜKM-in yerləşdiyi hazırda Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin fəaliyyət göstərdiyi ərazidə qonaqların təntənəli qarşılanma mərasimi olub. Əvvəlcə mərkəzin ərazisində ucaldılmış, hərbi məktəbin məzunu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyulub.

Görüş iştirakçıları mərkəzin klubunda ümummilli lider Heydər Əliyevin adını daşıyan muzey-lektoriyaya baxıb, onun həyat və fəaliyyətini əks etdirən zəngin eksponatlarla tanış olublar. Təntənəli mərasim ümummilli lider Heydər Əliyevin və həlak olmuş döyüşçülərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin ifası ilə başlayıb. Sonra Azərbaycan Respublikasının Dövlət bayrağı və hərbi məktəbin müxtəlif illərdəki bayraqları səhnəyə gətirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov görüş iştirakçılarını səmimi salamlayaraq hərbi məktəbin keçdiyi döyüş yoluna toxunub və müstəqillik qazandıqdan sonra Ermənistanın işğalçılıq siyasətilə üz-üzə qalmış, müharibədən keçmiş Azərbaycanın ordu quruculuğunda məktəbin yetirmələrinin rolundan danışıb.

Ölkəmizdə son illərdə həyatımızın bütün sahələrində baş vermiş nəhəng dəyişikliklərə toxunan Müdafiə naziri bu yüksəlişin ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin adı ilə bağlı olduğunu xüsusi vurğulayıb.



"Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin qəhrəmanlıq tarixi və şərəfli ənənələri" mövzusunda məruzə ilə çıxış edən Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev hərbi məktəbin tarixi, fəaliyyəti və indiki vəziyyəti barədə ətraflı məlumat verib.

Düz 35 il öncə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində gənc leytenantların buraxılışı olduğunu söyləyən general-leytenant H.Piriyev həmin günün ona ikinci ad günü kimi əziz olduğunu bildirdi. "Həmin məzunlardan 50-dən çoxu ailələrilə birlikdə təntənəli mərasimdə iştirak etmək üçün buradadırlar. Bu sevindirici və həyəcanlandırıcıdır, ona görə ki, məzunların çoxu uzun illərdən sonra ilk dəfə görüşür".

Məktəbin təşəkkül tarixindən danışan Hərbi Akademiyanın rəisi bildirdi ki, Azərbaycan SSR Xalq Komissarları Sovetinin 7 oktyabr 1921-ci il qərarı ilə komandir heyəti kadrlarının hazırlığını asanlaşdırmaq məqsədilə ilk Azərbaycan Hərbi Məktəbi yaradılıb və 137 yetirmənin cəlb edildiyi məktəbin açılışı həmin il dekabrın 15-də olub. Məktəb indiki H.Aslanov adına Qarnizon Zabitlər Evinin yerində yerləşirdi.

Görkəmli dövlət xadimi Nəriman Nərimanovun bilavasitə təşəbbüsü və iştirakı ilə burada tədrisə tanınmış Sovet hərb xadimləri, o cümlədən Azərbaycan diviziyasının komandiri Cəmşid Naxçıvanski, məşhur sərkərdələr Əlağa Şıxlinski və Səmədbəy Mehmandarov cəlb edilmişdilər.

1939-cu ildə yaradılmış Qroznı Hərbi Piyada Məktəbi daimi Bakıya köçdükdən sonra Baş Qərargahın 1945-ci il 28 fevral tarixli direktivilə Bakı Piyada Məktəbi adını almış, Sovet Ordusu üçün zabit kadrlarının hazırlığı işinə böyük töhfə vermişdi.

Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin, o cümlədən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin indiyədək 100-dən artıq buraxılışı olub.



General-leytenant H.Piriyevin sözlərinə görə, Bakı Ali Ümumqoşun Komandirləri Məktəbini görkəmli hərb və dövlət xadimləri bitiriblər. Yaradıldığı gündən indiyədək məktəb əsaslı hərbi bilik, yüksək təcrübə və komandir vərdişləri aşılayan mühüm təhsil rəmzinə çevrilib. Ona görə bu gün biz iftixar hissilə şərəfli döyüş yolu keçmiş məktəbin ilk yetirmələrini xatırlayırıq. Qvardiyaçı tank briqadasının komandiri, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, həmçinin Sovet İttifaqı Qəhrəmanları, akademik Ziya Bünyadov, general-mayor G.Preobrajenski, polkovnik S.Levin də onların sırasındadır.

Hərbi Akademiyanın rəisi vurğuladı ki, məktəbin məzunları Əfqanıstanda da ön sıralarda olmuş, hərbi borcu şərəf və ləyaqətlə yerinə yetirmişlər. Onların arasında 1980-ci il buraxılışının məzunu, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş İqor Ploskonos da var.

General-leytenant H.Piriyevin söylədiyi kimi, məktəbin şərəfli ənənələrini ləyaqətlə davam etdirən hərbçilər bu gün də az deyil. Hazırda onlar Silahlı Qüvvələrdə yüksək vəzifələr tutan zabit və generallardır. Onların gərgin əməyi sayəsində orduda islahatlar aparılır, hərbi intizam möhkəmləndirilir, hissə və birləşmələrdə döyüş bacarığı yüksəldilir.

Hərbi məktəb hazırda vüqarla ümummilli lider Heydər Əliyevin adını daşıyır, dinamik inkişaf edir, nüfuzunu artırır. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və ictimai-siyasi sahələrdə, o cümlədən ordu quruculuğunda böyük nailiyyətlər qazanılıb. Ordumuzun uğurlu inkişafı üçün maddi-texniki təminat gücləndirilir, köklü islahatlar aparılır, ən müasir dünya ordularının təcrübəsi öyrənilərək tətbiq edilir.



Məzunlardan çıxış üçün söz alan Anatoli Makarov doğma divarlar arasında olduqca həyəcanlandığını, hətta məktəbə daxil olanda göz yaşlarını güclə saxladığını dedi. Ona görə ki, burada hər şey ona doğmadır. Hərbi xidmətini Smolenskdə başa vurduğunu söyləyən qonaq hazırda həmin regionda Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi buraxılışlarının 18 məzununun yaşadığını və çalışdığını, bir-birilə əlaqə saxladığını söylədi. Onların tapşırığı ilə Smolenskdəki məzunların müraciətini oxudu, məktəbə gətirdiyi xatirə nişanlarını və kitabları təqdim etdi.

Qonşu Gürcüstandan gəlmiş Aleksandr Elbakidze də 35 ildən sonra Bakıda, hər bir məzunun fəxr etdiyi doğma məktəbdə yenidən görüşməyin yetərincə təsirli olduğunu dilə gətirdi. Bu illər ərzində onların hər birinin çətin və şərəfli yol keçdiyini, amma harada olmalarına, xidmət etmələrinə baxmayaraq, öz məktəblərinin adını şərəflə daşıdıqlarını bildirdi.




- Salam, əziz dostlar, qardaşlar! - deyə keçmiş məzun Pavel Dulnev çıxışını Azərbaycan dilində başladı və sonra rus dilində davam etdirdi. Doğma məktəbdə görüşdən çox şad olduğunu söyləyən natiq 30-dək məzunun Böyük Vətən müharibəsi illərində Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü fəxrlə bildirdi. Onun sözlərinə görə, bu gün məktəbi bitirmiş insanlar, tarixi ənənələri ləyaqətlə davam etdirirlər.

Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin Məzunları Birliyinin sədri, Rusiya Federasiyasından gəlmiş general-leytenant Sergey Antonenko 1972-ci ildə məzun olduğunu dedi. Rusiyalı general Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin Məzunları Birliyini ötən il yaratdıqlarını bildirdi. O da doğma məktəblə bağlı xatirələrini bölüşdü, 100-dən artıq məzunun general, Viktor Kulikovun isə Sovet İttifaqı Marşalı rütbəsinədək yüksəldiyini vurğuladı. General Antonenko Azərbaycan Silahlı Qüvvələrinin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyətinə uğurlar arzuladı.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov məzunlara xatirə medalları və hədiyyələr təqdim etdikdən sonra doğma məktəbə həsr edilmiş "Yaranma tarixi" sənədli filmi nümayiş etdirildi. Filmdə tarixi kadrlarla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin uğurları da öz dolğun əksini tapmışdı.

Kiçik fasilədən sonra Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi məzunlarının şərəfinə Müdafiə Nazirliyi Əlahiddə Nümunəvi Hərbi Orkestrinin ifasında konsert proqramı təqdim olundu.

Qonaqlar, həmçinin vaxtilə təhsil aldıqları indiki Silahlı Qüvvələrimizin Təlim və Tədris Mərkəzi ilə yaxından tanış oldular, ən müasir trenajor və tədris avadanlıqlarıyla təchiz edilmiş siniflərə, yataqxanalara baş çəkdilər.

Sonra qonaqlar üçün Azərbaycan paytaxtına gəzinti təşkil edilib. Onlar uzun müddət əvvəl ayrıldıqları və son illərdə xüsusilə dəyişərək gözəlləşən Bakının görməli yerlərilə tanış olublar.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

# Prezident İlham Əliyevin nitqi Silahlı Qüvvələrin şəxsi heyətində vətənpərvərlik ruhunun daha da yüksəlməsinə səbəb olub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının nitqi bütün xalqımız kimi, Silahlı Qüvvələrin şəxsi heyətinin də böyük marağına və vətənpərvərlik ruhunun daha da yüksəlməsinə səbəb olub. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Silahlı Qüvvələrin qoşun növləri və hərbi hissələrində tarixi əhəmiyyət kəsb edən bu qətiyyətli nitq dərindən öyrənilir, təbliğ edilir və qarşıda duran vəzifələrin icrası ilə əlaqədar silsilə tədbirlər həyata keçirilir.***



"N" hərbi hissəsində keçirilən toplantını Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani açaraq möhtərəm Prezidentimizin nitqinin nəinki respublikamızda, eləcə də bir çox dünya ölkələrində geniş təəssürat doğurduğunu bildirib. O, həmin nitqə istinadən qeyd edib ki, həqiqətən altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır.

Toplantı iştirakçılarının nəzərinə çatdırılıb ki, Prezidentin sədrliyi ilə keçirilən iclasda dövlətimizin başçısı ordu quruculuğu məsələlərinə geniş yer ayırıb. Ali Baş Komandanımız deyib ki, ordu quruculuğu bizim üçün daim prioritetdir. Xəzər sahilində ən böyük hərbi obyektlərdən biri bu il Azərbaycanda istifadəyə verilib - Hərbi Dəniz Qüvvələrinin bazası yaradılıb. Bütün digər lazımi tədbirlər görülür, hərbi şəhərciklər, bazalar tikilir, təmir olunur, şəxsi heyət üçün gözəl şərait yaradılır. Təbii ki, silah-sursat, maddi-texniki təminat daim diqqət mərkəzindədir, müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.

Polkovnik Valeh Rəcəbov Ali Baş Komandanın iclasda dediyi "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində heç bir irəliləyiş yoxdur. Məsələ uzandıqca Ermənistan daha da çox tənəzzülə uğrayır, ölkə dərin siyasi, mənəvi-psixoloji və maliyyə böhranı içindədir. Ölkənin inkişafı üçün heç bir resurs yoxdur. Belə getsə, gələcəkdə Ermənistan kimi ölkə bəlkə də dünya xəritəsində heç olmayacaqdır. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, antiazərbaycan qüvvələridir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş daş üstündə qalmaz" sözlərini misal gətirərək bir daha qeyd edib ki, şəxsi heyət işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır və qadirdir.

Qarabağ müharibəsi veteranı Əli Babayev, Əfqanıstan müharibəsi veteranı Nadir Ələkbərov və ehtiyatda olan polkovnik-leytenant Vaqif Qurbanov Prezidentin nitqini televiziya vasitəsilə izlədiklərini, bu nitqin onlarda da böyük ruh yüksəkliyi yaratdığını, Qarabağ müharibəsinin ikinci mərhələsi başlayarsa, zabit və əsgərlərimizlə bir səngərdə olacaqlarını bəyan ediblər.

Kapitan Arif Əliyev zabitlər adından Ali Baş Komandanı əmin edib ki, ordumuza göstərilən etimadı bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətli və şərəfli xidmətləri ilə doğruldacaqlar.

Bu günlərdə Silahlı Qüvvələrdən tərxis ediləcək müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları adından çıxış edən əsgər Xalid Tapdıqzadənin "Biz doğma ordumuzdan ayrılmaq ərəfəsindəyik. Lakin, bu gün Ali Baş Komandanımız döyüş əmri verərsə, biz evimizə yox, birbaşa döyüş səngərinə yollanmağı üstün tutacağıq. Axı Vətən bizə arxalanır" sözlərini toplantı iştirakçıları alqışlarla qarşılayıblar.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı nitqinin mühüm siyasi əhəmiyyət kəsb etdiyini, düşmənlərimizə, Ermənistanın havadarlarına, ermənipərəst, islamofob siyasətçilərə, anti-Azərbaycan qüvvələrinə qarşı kəskin mesaj olduğunu önə çəkən polkovnik Elçin Kərimovun çıxışı "N" hərbi hissəsinin şəxsi heyəti tərəfindən rəğbətlə qarşılanıb. Polkovnik qeyd edib ki, ölkə başçısının proqram əhəmiyyətli bu çıxışı onsuz da Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olan Azərbaycan əsgərinin döyüş ruhunu, torpaqları işğaldan azad etmək əzmini daha da artırıb. Düşmənlərimiz isə bəyanat xarakterli bu nitqdə irəli sürülən fikirlərdən vahiməyə düşərək başlarını itiriblər. Son günlərdə Ermənistan silahlı bölmələrinin atəşkəsi intensiv surətdə pozmasına baxmayaraq, onların cavab atəşləri ilə dərhal susdurulması, kəşfiyyat-təxribat qruplarının öncədən aşkarlanaraq qarşısının alınması, pilotsuz uçuş aparatlarının məhv edilməsi düşmənlərin həyəcanını daha da artırıb.

Qarabağ döyüşlərinin iştirakçısı zabit Musa Rüstəmovun oğlu kapitan Orxan Rüstəmov çıxış edərək deyib ki, mən zabit oğluyam və atamın seçdiyi bu çətin və şərəfli peşəni - Vətənə xidmət peşəsini seçməkdə heç də yanılmamışam. Xalq şairimiz Səməd Vurğunun yazdığı kimi "Çiçək vaxtı deyil indi, barıt vardır havalarda". Məhz bu gün Vətənin hər bir vətəndaşından barıt qoxusu gəlməlidir. Biz işğal altında olan, yolumuzu gözləyən əzəli və əbədi torpaqlarımızın həsrətinə son qoymalıyıq. Möhtərəm Prezidentimizin bu nitqi bir daha hər birimizi cənnət Qarabağa, neçə illərdir ki, işğal altında inildəyən torpaqlara səsləyir. Möhtərəm Prezidentimizin və hörmətli Müdafiə nazirimizin dəfələrlə qeyd etdikləri kimi, "o torpaqlar düşmən ayağı altında od tutub yanmalıdır".



Azərbaycanın Milli Qəhrəmanı, şəhid Akif Əkbərovun oğlu əsgər Zaur Əkbərov da zabit Rüstəmovun fikirlərinə şərik olaraq, sonucu qələbə ilə, zəfərlə nəticələnəcək Qarabağ uğrunda müqəddəs savaşlara hazır olduqlarını bəyan edib.

Tədbirdə iştirak edən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani cəbhə bölgəsindəki zabit və əsgərlərin döyüş əhval-ruhiyyəsi ilə, işğal edilmiş torpaqları tezliklə azad etmək əzmi ilə yaşayan və Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olan Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olmasından və vətənpərvərlik ruhundan məmnunluqla söhbət açıb, döyüşçülərə gələcək xidmətlərində uğurlar arzulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasının materialları Silahlı Qüvvələrin cəbhə bölgələrindəki hərbi hissələrində də dərindən öyrənilir və geniş təbliğ olunur.

Ölkə başçısının qətiyyətli və dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının böyük marağına səbəb olan tarixi nitqi düşmənlə təmas xəttində Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanan zabit və əsgərlərimizin döyüş ruhunun daha da yüksəlməsinə səbəb olub. Həmin nitqdən sitatlar artıq plakat şəklində bölmələrin dayaq məntəqələrində, səngərlərdə döyüşçülərin başı üzərindən asılıb. Ali Baş Komandanın ordu quruculuğunun inkişafı, qazanılan uğurlar, yeni-yeni hərbi şəhərciklərin, bazaların tikilib istifadəyə verilməsi, təmiri, zabitlər üçün gözəl şəraitin yaradılması, silah-sursatın, maddi-texniki təminatın daim diqqət mərkəzində saxlanılmasını yenə də önə çəkməsi, ən müasir silahlar, texnikalar alınması və bu gün Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olmasını böyük iftixar hissi ilə deməsi döyüşçülərimizin qələbəyə inamını daha da artırır.



Gərgin döyüş hazırlığı məşğələlərindən sonra toplaşan artilleriyaçılar Azərbaycan Prezidentinin nitqindən irəli gələn vəzifələrin yeni qüvvə, yeni həvəslə icrasına başlayıblar.

Tədbiri şəxsi heyətlə iş üzrə komandir müavini mayor Namiq Cavadov açaraq Prezidentin nitqinin xalqımızın və dövlətimizin həm siyasi-iqtisadi, həm də hərbi həyatında yeni bir mərhələnin başlanğıcından xəbər verdiyini bildirib.

Sürücü-mexanik, kiçik çavuş Fərman Fərmanzadə möhtərəm Prezidentimizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində bir irəliləyiş olmadığı, məsələnin uzandıqca Ermənistanın daha çox tənəzzülə uğrayacağı barədə fikrini xatırladaraq deyib ki, bizim ordumuz 90-cı illərin əvvəllərindəki pərakəndə ordu deyil. Bu ordu artıq bir mərkəzdən idarə olunan, vahid komandanlığa tabe olan mütəşəkkil ordudur. Məzlum erməni xalqını uçuruma aparan Ermənistanın kriminal siyasi və hərbi rəhbərliyi nə qədər gec deyil, öz çirkin və məkrli niyyətlərindən əl çəkməlidir. Əks təqdirdə möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, bir həftə ərzində orada daş daş üstə qalmaz.

Biləsuvar rayonundan olan top komandiri gizir Cəlil Əliyev fəxrlə bildirib ki, onun doğulduğu rayon vaxtilə kənd təsərrüfatı məhsullarının istehsalına görə respublikada məşhurlaşıb. İndi isə Biləsuvar rayonu Mübariz, Pərvin və digər qəhrəmanlarına görə tanınır. Gizir onu da vurğulayıb ki, əmisi oğlu Qarabağ döyüşlərində şəhid olarkən o azyaşlı imiş. Bu gün isə əmisi oğlu yaşındadır. İndi Cəlil Əliyev və bütün silahdaşları şəhidlərin intiqamını almağa tam hazırdırlar. Ali Baş Komandanın əmri kifayətdir ki, düşmənin layiqli dərsini versinlər və orada daşı daş üstə qoymasınlar.

Cəbhə bölgəsində təcrübə keçən kursantlar adından çıxış edən kursant Qismət Muradov bildirib ki, artıq onlar xüsusi təyinatlı təhsil müəssisələrimizin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində lazımi biliklərə yiyələnərək burada öz təcrübi biliklərini daha da artırıblar. Cəbhə bölgəsindəki əsgər və zabitlərlə birlikdə onlar da Qarabağa zəfər yürüşünə müsəlləh əsgər kimi tam hazırdırlar.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ordumuza daim diqqət və qayğı göstərildiyini bir daha tədbir iştirakçılarının nəzərinə çatdıraraq böyük əminliklə bildirib ki, Silahlı Qüvvələrimizin cəbhə bölgələrindəki hərbi hissələrinin şəxsi heyəti də döyüş əhval-ruhiyyəsi ilə yaşayır, onların vətənpərvərlik ruhu çox yüksəkdir və həqiqətən də, onlar bir həftə ərzində Ermənistanda daşı daş üstə qoymamağa tam hazır və qadirdirlər.

* * *



Düşmənlə təmas xəttindəki "N" hərbi hissəsində də Qarabağ müharibəsinin veteranları və əlilləri ilə görüş şəxsi heyətdə xoş təəssüratlar oyadıb. Polkovnik-leytenant Şükür Həmidov qonaqları salamladıqdan sonra söz Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbaniyə verilib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı nitqi Qarabağ müharibəsinin veteran və əlillərinin, eləcə də şəhid ailələrinin də torpaqlarımızın işğaldan tezliklə azad ediləcəyinə inamını daha da artırıb. Ona görə də Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə göstərdiyi şəxsi rəşadət və igidliyə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Sevindik İsmayılov, Qarabağ uğrunda döyüşlərdə sol qolunu və sağ ayağını itirmiş Süleyman Məmmədov və Qarabağ müharibəsinin qazisi Əlizadə Abbasov da bu gün təmas xəttindəki əsgərlərə dayaq olmaq, onların qayğı və problemləri ilə maraqlanmaq, yeri gələrsə, onlarla birlikdə döyüşlərə atılmaq arzusuyla buraya gəlmişlər.

Sevindik İsmayılov Azərbaycan Ordusunun 90-cı illərin əvvəllərindəki acınacaqlı vəziyyətini xatırlayaraq qeyd edib ki, o vaxtlar ordumuz yeni yaranırdı. Silah-sursat sarıdan korluq çəkirdik. Vahid komandanlıq yox idi. Döyüşlər plansız, qeyri-peşəkarcasına aparılırdı. Vətəni qorumaq üçün döyüşlərə atılmış oğullar düşünülməmiş əməliyyatların və şəxsi maraqların qurbanı olur, şəhər və rayonlarımız bir-birinin ardınca işğal edilirdi. Ölkədə xaos, orduda hərc-mərclik hökm sürürdü. Lakin ümummilli liderimiz Heydər Əliyevin xalqın xahişi və tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ölkəmiz vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Ordu quruculuğunda yeni mərhələ başlandı. Mütəşəkkil ordu yarandı, peşəkarlar irəli çəkildi. Ulu öndərin 1993-cü il noyabrın 2-də Azərbaycan televiziya və radiosu ilə xalqa müraciəti isə həm xalqın milli şüurunun oyanışında, həm də ordu quruculuğunda çox mühüm rol oynadı.

Müharibə veteranı daha sonra qeyd edib ki, məhz böyük öndər Heydər Əliyevin rəhbərliyi altında indi insanların məskən saldığı bu yerlər düşmən işğalından azad edildi, düşmən bir çox yaşayış məntəqələrindən qovularaq çıxarıldı və həmin döyüşlərdə mən də ulu öndərimiz tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildim. "Fəxr edirəm ki, bu ordeni yaxama məhz əbədiyaşar Ali Baş Komandanımız, unudulmaz Heydər Əliyev sancmışdır. Mən inanıram ki, üçrəngli bayrağımızı sizinlə birlikdə tezliklə Xankəndinə, Şuşaya, Laçına və işğal altında olan digər torpaqlarımıza sancacağıq. Möhtərəm Prezidentimizin dediyi "bir həftə ərzində orada daş daş üstə qalmaz" sözləri biz veteranları düşmənlə təmas xəttinə gətirməyə məcbur edib. Qarabağa zəfər yürüşündə biz də sizinlə bir yerdə olacağıq və inşallah qələbə bizimlədir".

Qarabağ müharibəsinin qazisi Süleyman Məmmədovun alovlu çıxışı da şəxsi heyətdə xoş duyğular oyadıb: "Döyüşlərdə dəfələrlə yaralanmışam. Sol qolumu və sağ ayağımı itirmişəm. Ürəyim də Vətənə qurbandır. Fiziki cəhətdən sağlamlığımı itirsəm belə, mən bu vəziyyətdə də torpaqları işğaldan azad edəcək qəhrəman əsgərlərin yanında olacağam. Qoy sözlərimi düşmən də eşitsin. Nəinki Azərbaycan əsgəri, eləcə də bütün xalq Qarabağ uğrunda döyüşlərə səfərbərdir".

Əlizadə Abbasov da döyüşçü dostlarının fikirlərinə şərik olduğunu bildirərək dedi ki, sizinlə birlikdə döyüşə atılmağa hazıram. Fəxr edirəm ki, bu gün oğlum Murovdağda əsgəri xidmətdədir. "Qarabağa zəfər yürüşü başlayacağı təqdirdə, o da döyüşçülərin ön cərgəsində olacaqdır. Oğul düşmən çəpəri deyilmi?!"

Azərbaycanın Milli Qəhrəmanı, şəhid Kərim Kərimovun qardaşı mayor Mahmud Kərimov şəxsi heyət adından qonaqlara minnətdarlığını bildirib və onları əmin edib ki, hər bir əsgər və zabit torpaqlarımızı işğaldan azad etməyə hazır və qadirdir, onlar Ali Baş Komandanın əmrini gözləyirlər.




Polkovnik Elçin Kərimov və polkovnik-leytenant Seymur Həbibullayev çıxışlarında ölkə rəhbərliyinin və xalqın Azərbaycan əsgərinə olan etimadlarını Vətənə, xalqa, dövlətə sədaqətli xidmətləri ilə doğruldacaqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ön səngərdə xidmət edən əsgərlərimizin əhval-ruhiyyəsi yüksək səviyyədədir




***Ön səngərdə keçirilən tədbirdə Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Ramazan bayramı münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə təbrikini çatdırıb.***

Döyüşçülər Müdafiə nazirinin təbrikini alqışlarla qarşılayıblar. Taqım komandiri leytenant Ələkbər Ələkbərli çıxış edərək bildirib ki, onlar heç vaxt Müdafiə Nazirliyinin diqqət və qayğısından kənarda qalmırlar. Düşmənin bir neçə metrliyində yerləşən dayaq məntəqəsində xidmət üçün hər bir zəruri şərait yaradılıb. Təminat yüksək səviyyədədir. Şəxsi heyət qarşıya qoyulmuş əmr, göstəriş, tapşırıq və vəzifələri layiqincə yerinə yetirirlər. Bir neçə gün öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqi düşmənlə təmas xəttindəki əsgər və zabitlərin döyüş ruhunu daha da artırıb. Xalqımız əmin ola bilər ki, Vətən torpaqları etibarlı şəkildə qorunur və işğal altındakı torpaqlarımız da xalqımızın və ordumuzun birliyi, gücü ilə tezliklə azad ediləcəkdir.



Müdafiə nazirinin adından ön səngərdəki əsgərlərə bayram sovqatları təqdim olunub.

Bir neçə gün öncə düşmənin pilotsuz uçuş aparatını məhv etdiyinə görə qısamüddətli məzuniyyətə göndərilmiş əsgər İlkin Əliquliyevin yenidən ön səngərə qayıtması bayram münasibətilə keçirilən görüşün iştirakçılarında xoş təəssüratlar oyadıb.

Polkovnik Elçin Kərimov, "Azərbaycan Bayrağı"ordenli, Qarabağ müharibəsi veteranı Sevindik İsmayılov və digər hərbi qulluqçular çıxış edərək Azərbaycan dövlətinin və xalqının milli təhlükəsizliyinin təminatı, milli-mənəvi dəyərlərimizin qorunması naminə səylərini bundan sonra da artıracaqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Azərbaycan milli mətbuatı - 140*

# Milli dəyərlərimizi inkişaf etdirək

Bəşəri ideyaların təbliğində, milli məfkurənin, ictimai-siyasi fikrin təşəkkül tapmasında və inkişafında güclü, təsirli mexanizm daşıyıcısı sayılan Azərbaycan milli mətbuatının yaranmasından 140 il keçir. Ölkə Prezidenti cənab İlham Əliyevin bu il iyunun 2-də imzaladığı Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında sərəncamında cəmiyyətdə mətbuatın rolu və əhəmiyyəti barədə fikirlər öz əksini tapıb. Sərəncamda qeyd edilir ki, ötən yüzilliyin axırlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişaf, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılmasına zəmin yaratmışdı.



Azərbaycan milli mətbuatı başlanğıcını ilk nömrəsi 1875-ci ilin 22 iyulunda çapdan çıxmış "Əkinçi" qəzeti ilə götürərək bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirib, həmçinin xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. "Əkinçi" qəzetinin işıq üzü görməsində böyük əziyyət çəkən, xalqının milli oyanışının yollarını axtaran alim, pedaqoq, jurnalist və tanınmış ictimai xadim kimi bu tarixi missiyanı yerinə yetirən Həsən bəy Zərdabi əbədi şəxsiyyətdir. Azərbaycanda maarifçilik hərəkatının formalaşmasında böyük rol oynayan "Əkinçi" qəzetinin əsas məqsədi, məramı dini fanatizmi, cəhaləti aradan qaldırmaq, bununla xalqı elmə, maarifə, tərəqqiyə səsləmək olub.

Xalqımızın salnaməsi, milli mətbuatımızın "Xitabət kürsüsü" adlandırılan "Əkinçi" ana dilinin saflığını qorumaq, Vətəninə, millətinə layiqli övlad olmaq, savadsızlığa və nadanlığa son qoymaq kimi mütərəqqi ideyaların carçısı idi. Artıq XX əsrin əvvəllərində "Əkinçi"dən güc alıb, onun yolunu davam etdirmək istəyən, milli özünüdərk hissinin formalaşmasına çalışan qəzet və jurnallar nəşr edilməyə başlayır. "Ziya", "Kəşkül", "Kaspi", "Şərqi-rus" "Həyat", "Açıq söz" və "Azərbaycan" kimi demokratik ruhlu qəzetlər meydana çıxır. Nəhayət, 1906-cı il aprelin 7-də Tiflisdə "Qeyrət" mətbəəsində "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyulur. Böyük ədib və naşir Cəlil Məmmədquluzadənin milli mətbuat tariximizə bəxş etdiyi "Molla Nəsrəddin" jurnalı müxtəlif fasilələrlə 25 il nəşr edilərək dövrünün çox parlaq aynası oldu...

Bu gün böyük fərəh hissi ilə qeyd etməliyik ki, milli mətbuatımızın ənənələri müasir dövrümüzdə layiqincə davam etdirilir. "Əkinçi"nin dəyərli davamçısı olan azad və müstəqil mətbuatın inkişaf etdirilməsinə dövlət səviyyəsində ciddi önəm verilir. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, azad və demokratik ruhlu mətbuatın formalaşması sivil cəmiyyətimizin formalaşmasında ən təsirli vasitələrdən biridir. Tarixin dəyərli ənənələrini yaşatmaq və inkişaf etdirmək isə bu günlərdə peşə bayramlarını dövlət səviyyəsində qeyd edən Azərbaycan jurnalistlərinin əsas vəzifələrindən biridir.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin Tibb Baş İdarəsində toplantı keçirilib





Müdafiə Nazirliyinin Tibb Baş İdarəsində qış tədris dövrünün yekunlarına həsr olunmuş toplantı keçirilib. Azərbaycan Respublikasının Dövlət himninin ifası ilə başlanan toplantıda Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev çıxış edərək cari ilin birinci yarısında tibb xidmətinin fəaliyyətini təhlil edib, tapşırıqların yerinə yetirilməsi, aparılan profilaktik tədbirlər sayəsində hərbi qulluqçular arasında xəstələnmə səviyyəsinin xeyli azalmasını diqqətə çatdırıb.

O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi qayğının nəticəsində hərbi qulluqçular bu gün müasir tələblərə cavab verən yeni avadanlıqlarla təchiz olunmuş hərbi tibb müəssisələrində müayinə və müalicə olunurlar.

Toplantıda Silahlı Qüvvələrin bütün tibb müəssisələri və personalına, stasionar və səhra hospitallarının rəhbərliyinə ehtimal olunan döyüş fəaliyyətlərinə hər an hazır olmaları barədə və bu istiqamətdə müvafiq tədbirlərin görülməsi ilə bağlı konkret tapşırıqlar verilib.

Tibb hərbi hissə və müəssisələrin rəhbərləri qış tədris dövründə görüləcək işlər haqqında, eləcə də tapşırıqların hər an yerinə yetirilməsinə hazır olmaları barədə məruzə ediblər.

Sonda 2015-ci ilin ikinci yarısı üçün tapşırıqlar dəqiqləşdirilib, xidmətdə fərqlənən hərbi qulluqçular təltif olunub və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəhid İqbal Əhmədovun xatirəsi anılıb



***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Lənkəran şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhid İqbal Sərraf oğlu Əhmədovun anadan olmasının 35 illiyi ərəfəsində doğulduğu rayonda anma mərasimi keçirilib. Bir gün öncə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə Lənkərana ezam olunmuş Müdafiə Nazirliyinin nümayəndəsi şəhidin ailəsi ilə görüşüb, onların problem və qayğıları ilə maraqlanıb, nazirin bayram sovqatını şəhid zabitin ailəsinə təqdim edib.***

Tədbir iştirakçıları əvvəlcə Aşağı Nüvədi kəndində baş leytenant İqbal Əhmədovun məzarını ziyarət edib, önünə gül dəstələri düzüblər. Hərbi qulluqçular və rayon ictimaiyyətinin nümayəndələri çıxış edərək şəhid haqqında xatirələrini bölüşüblər. Kəndin axundu Hacı Asəf təkcə Aşağı Nüvədidən altı şəhidin olduğunu bildirərək kəndin hər bir sakininin bu gün də Vətən torpaqları uğrunda şəhidliyə hazır olduğunu bəyan edib.

Heydər Əliyev Mərkəzində davam edən anma mərasimində Lənkəran şəhər İcra Hakimiyyətinin rəsmisi Əlimərdan Əliyev çıxış edərək lənkəranlıların bütün dövrlərdə hərbi peşələrə böyük maraq göstərdiklərini, Vətənə və xalqa sədaqətlə xidmət etdiklərini bildirib. O qeyd edib ki, təkcə Lənkəran rayonundan 200-dək həmyerlimiz Qarabağ uğrunda döyüşlərdə, dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında şəhidlik zirvəsinə ucalıb, beş nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, onlarla gəncimiz orden və medallar ilə təltif olunub. Hazırda Silahlı Qüvvələrin ayrı-ayrı qoşun növlərində, birlik, birləşmə və hərbi hissələrində yüzlərlə lənkəranlı gənc Vətənə borcunu şərəf və vicdanla yerinə yetirir. Xüsusi təyinatlı təhsil müəssisələrində rayonumuzdan olan kursantların sayı ilbəil artmaqdadır. Bu gün də tutduğu vəzifəsindən, yaşından asılı olmayaraq, hər bir lənkəranlı Azərbaycan naminə, Qarabağ uğrunda Ali Baş Komandanın əmrinə müntəzirdir.

Respublikanın xalq artisti Qabil Quliyevin şəhidlərin xatirəsinə "Rekviyem-poema"sı təqdim olunduqdan sonra onların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani bu kimi anma mərasimlərinin gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını, Müdafiə Nazirliyi rəhbərliyinin bu istiqamətdə tədbirlərin təşkilinə xüsusi əhəmiyyət verdiyini vurğulayıb. Sonra o, Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə baş leytenant İqbal Sərraf oğlu Əhmədovun ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin oğlu Kənanın yaxasına sancıb. Səkkiz yaşlı şəhid oğlunun atasının əvəzindən "Azərbaycan Respublikasına xidmət edirəm!" və qızı Fatimənin "Biz atasız da böyüyəcəyik, təki Vətən sağ olsun!" sözləri tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.





Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hadı Rəcəbli ordu quruculuğunun Ali Baş Komandanımızın Prezident kimi fəaliyyətində əsas prioritet məsələlərdən olduğunu, Silahlı Qüvvələrimizin dünyanın güclü orduları sıralarına yüksəldiyini vurğulayıb. Bildirib ki, Müdafiə nazirinin sorağının tez-tez cəbhə bölgələrindən gəlməsi, ön səngərdə əsgərlərlə görüşləri, onlarla birlikdə bir süfrə ətrafında çörək kəsməsi, yeni hərbi obyektlərin, şəhərciklərin açılışlarında iştirakı, xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırması hər bir Azərbaycan vətəndaşında ordumuzun tezliklə düşmən üzərində qələbə çalacağına inamını daha da artırır.

Şəhər İcra Hakimiyyəti başçısının müavini İlkin Rəhimov, şəhid anası Kəsirə xanım, Aşağı Nüvədi kənd orta məktəbinin müəllimi Hökmulla Əhmədov, şəhidin qardaşı İdrak Əhmədov və başqaları çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə iştirak edən hərbi qulluqçular Ali Baş Komandanın hər bir əmrinə daim hazır olacaqlarına və şəhidlərimizin intiqamını tezliklə alacaqlarına and içiblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

İyulun 20-dən 24-dək Oberammerqau şəhərində (Almaniya) "Quru Qoşunların döyüş hazırlığının qiymətləndirilməsi" və iyulun 20-dən 27-dək London şəhərində (Böyük Britaniya) "Müdafiə Tədqiqatları üzrə Kral Kolleci" kursları keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

### Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 22-də Tərtər rayonu ərazisində qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Saymon Tiller, təmas xəttinin qarşı tərəfində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Jiri Aberle keçirəcəklər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***21 iyul 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 91 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Çinari, Ayqepar kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Yarımca, Göyarx, Çaylı, Ağdam rayonunun Şıxlar, Qaraqaşlı, Təzəkənd, Qiyaməddinli, Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Alxanlı, Aşağı Əbdülrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu çavuş Dadaşov Daşqın İbrahim oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 587
Nüsxə 4700